
LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

Şərq Tərəfdaşlığı regionunda mütəşəkkil cinayətkarlıqla mübarizə (II mərhələ)



İcra müddəti: 01.01.2025 - 31.12.2028

ŞT ölkələri:

Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Aİ-nin maliyyə yardımı: € 1 800 000

Ümumi büdcə: € 1 800 000

İcraçı təşkilat(lar):

Europol

Internet səhifəsi: europol.europa.eu/how-we-work/eastern-partnership-project-eap

Layihənin təsviri:

"Şərq Tərəfdaşlığı regionunda mütəşəkkil cinayətkarlıqla mübarizə" layihəsinə Avropol rəhbərlik edir. Layihənin məqsədi Şərq Tərəfdaşlığı (ŞT) ölkələrinin əməliyyat və strateji potensialını Cinayət Təhdidlərinə Qarşı Avropa Multidissiplinar Platforması (EMPACT) ilə uyğun şəkildə artırmaq, EMPACT-ın dəstəklənməsi məqsədilə ŞT ölkələri və Aİ-yə üzv dövlətlər arasında əlaqələri gücləndirmək, eləcə də ŞT qurumlarının və müvafiq orqanların EMPACT haqqında bilik və məlumatlılıq səviyyəsini artırmaqdır. Layihə tərəfdaş ölkələrlə və Aİ-yə üzv dövlətlər arasında əməliyyatlar üzrə əməkdaşlığın təkmilləşdirilməsini davam etdirəcək. Layihə həmçinin mütəşəkkil və ağır beynəlxalq cinayətkarlıqla mübarizə sahəsində Aİ siyasəti çərçivəsində bu sahədə fəaliyyət göstərən Aİ agentlikləri ilə əməkdaşlığı gücləndirməyi hədəfləyir. Şərq Tərəfdaşlığı regionu ilə əməliyyatlar üzrə əməkdaşlığın təşviqi Aİ-nin siyasət dövrünün əməliyyat baxımından icrasına töhfə verir. Aİ-nin siyasət dövrü ilə uyğunlaşma sayəsində layihə bütün müvafiq cinayətkarlıq sahələrində lazımi təcrübəni və koordinasiyanı təmin edəcək.
Layihə vasitəsilə Şərq Tərəfdaşlığı regionundakı digər maraqlı tərəflər, layihələr və fəaliyyətlərlə qarşılıqlı faydalı əməkdaşlıq imkanları müəyyən ediləcək. Layihə Aİ nümayəndəlikləri ilə birgə işləyəcək, onları müvafiq layihələr barədə məlumatlandıracaq və hər bir nümayəndəliyin əhatə etdiyi yurisdiksiyalarda həyata keçirilən fəaliyyətlərə cəlb edəcək.

Gözlənilən nəticələr:

1. ŞT ölkələrinin Cinayət Təhdidlərinə Qarşı Avropa Multidissiplinar Platformasına (EMPACT) ilə uyğun olaraq əməliyyatlar sahəsində və strateji potensialı artırılır
2. EMPACT-ın dəstəklənməsi məqsədilə ŞT ölkələri və üzv dövlətlər arasında əlaqələr gücləndirilir
3. ŞT qurumlarının və müvafiq orqanların EMPACT haqqında bilik və məlumatlılıq səviyyəsi artırılır.